AZƏRBAYCAN RESPUBLİKASI

BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

# SƏRƏNCAMI

№ 25 "20" 02 2020-ci il

## Xocalı soyqırımının iyirmi səkkizinci ildönümünün keçirilməsinə dair tədbirlər planının təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Rəhbərinin "Xocalı soyqırımının iyirmi səkkizinci ildönümünün keçirilməsinə dair tədbirlər planının təsdiq edilməsi haqqında" 05 fevral 2020-ci il tarixli 34 nömrəli Sərəncamını, Bakı Şəhər İcra Hakimiyyətinin başçısının "Bakı şəhərində Xocalı soyqırımının iyirmi səkkizinci ildönümünün keçirilməsi haqqında" 19 fevral 2020-ci il tarixli 37 nömrəli Sərəncamını və "Yerli İcra Hakimiyyətləri haqqında" Əsasnamənin 4.1.22-ci bəndini rəhbər tutaraq

Qərara alıram:

1. Binəqədi rayonunda Xocalı faciəsinin iyirmi səkkizinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilsin (əlavə olunur).
2. Rayon İcra Hakimiyyəti başçısının müavinləri, Aparatın şöbə müdirləri və müvafiq qurumların rəhbərləri tədbirlər planında nəzərdə tutulmuş məsələlərin icrası üçün təşkilati hazırlıq işlərini həyata keçirsinlər və icrasını təmin etsinlər.
3. Xocalı soyqırımının iyirmi səkkizinci ildönümü ilə əlaqədar görülən işlər haqqında məlumatı 09 mart 2020-ci il tarixədək Bakı Şəhər İcra Hakimiyyətinə təqdim edilsin.
4. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyevaya həvalə edilsin.

Elxan Allahverdiyev

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**

SƏNƏDLƏR ÜÇÜN

Sabir Əliyev

CamScanner ilə tarandı

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının
"20" 02 2020-ci il tarixli 25 saylı
Sərəncamı ilə təsdiq edilmişdir

Xocalı faciəsinin iyirmi səkkizinci ildönümünün keçirilməsinə dair

## TƏDBİRLƏR PLANI

| № | Tədbirin adı | Məsul təşkilatlar | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | Rayon ictimaiyyətinin Xətai rayonunda Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış "Ana harayı" abidəsinə ziyarətinin təşkili | Rayon İcra Hakimiyyəti,<br>YAP Binəqədi rayon Təşkilatı,<br>Binəqədi rayon Gənclər və İdman İdarəsi | İ.Süleymanov<br>V.İsmayılov<br>A.Əliyeva<br>Şöbə müdirləri | 26 fevral 2020-ci il |
| 2. | İdarə və təşkilatlarda, mədəniyyət müəssisələrində, ali, orta ümumtəhsil və məktəbəqədər təhsil müəssisələrində Xocalı soyqırımına həsr olunmuş tədbirlərin (xatirə gecələri, dəyirmi masalar, foto-rəsm sərgiləri, inşa yazı müsabiqələri, idman yarışları, şahidlərlə görüş və s.) keçirilməsi, milli azadlıq uğrunda mübarizəyə həsr olunmuş sənədli və bədii filmlərin nümayişinin təşkil edilməsi | Rayon İcra Hakimiyyəti,<br>rayon Gənclər və İdman İdarəsi,<br>məktəbəqədər təhsil və orta ümumtəhsil müəssisələri, mədəniyyət müəssisələri,<br>Uşaq və Gənclərin Yaradıcılıq Mərkəzləri | A.Əliyeva<br>N.Allahverdiyev<br>N.Tarverdiyev | Fevral 2020-ci il |
| 3. | Goradil qəsəbəsi 2 nömrəli ETK-nin pansionatında müvəqqəti məskunlaşan xocalılarla görüşlərin keçirilməsi və şəhid ailələrinə humanitar yardımların göstərilməsi | Rayon İcra Hakimiyyəti,<br>Binəqədi Bələdiyyəsi,<br>Qaçqınlar və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Binəqədi rayon sektoru | A.Əliyeva<br>N.Allahverdiyev<br>M.Eminov<br>M.Nağıyev | 22 fevral 2020-ci il |

№ 25

CamScanner ilə skan edildi

| | | | | |
|---|---|---|---|---|
| 4. | Rayon ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi | Rayon İcra Hakimiyyəti | İ.Süleymanov<br>V.İsmayılov<br>R.Göyüşov<br>Y.Hüseynov | 26 fevral<br>2020-ci il<br>saat:17-00 |
| 5. | Xocalı soyqırımı günü ilə əlaqədar rayon ərazisində dövlət bayraqlarının endirilməsi | Rayon İcra Hakimiyyəti,<br>Qəsəbə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklər,<br>Bələdiyyələr,<br>Binəqədi rayon MKTB | İ.Süleymanov<br>İ.Cahagir-zadə<br>E.Zamanov | 26 fevral<br>2020-ci il |
| 6. | Rayon ərazisində fəaliyyət göstərən dini icmalar tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş anma mərasimlərinin təşkil edilməsi | Rayon İcra Hakimiyyəti,<br>Dini icmalar | A.Əliyeva<br>N.Allahverdiyev<br>Ş.Gülverdiyev | Fevral<br>2020-ci il |
| 7. | 26 fevral tarixində rayonun təhsil müəssisələrində ilk dərsin Xocalı soyqırımına həsr edilməsi | Rayon İcra Hakimiyyəti,<br>Orta ümumtəhsil müəssisələri | A.Əliyeva<br>N.Allahverdiyev | 26 fevral<br>2020-ci il |
| 8. | Xocalı soyqırımının ildönümü ilə əlaqədar keçirilən tədbirlərin və görülən işlərin KİV-də işıqlandırılması | Rayon İcra Hakimiyyəti | A.Əliyeva<br>N.Allahverdiyev | Fevral<br>2020-ci il |

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini** — **Aygün Əliyeva**

**İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri** — **Nicat Allahverdiyev**